

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 82 (23.244)

3 may 2019-cu il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Mayın 2-də Bakıda “Ayrı-seçkilik, qeyri-bərabərlik və zorakı münaqişəyə qarşı fəaliyyət naminə dialoq quraq” şüarı altında V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu işə başlayıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Forumun açılış mərasimində iştirak ediblər.

Forum Azərbaycan hökumətinin təşkilatçılığı, UNESCO, BMT-nin Sivilizasiyalar Alyansı, Dünya Turizm Təşkilatı, Avropa Şurası və ISESCO-nun tərəfdaşlığı ilə keçirilir. Tədbirdə 100-dən çox ölkənin və 30-dan çox beynəlxalq təşkilatın yüksəksəviyyəli rəsmiləri iştirak edirlər.

Dövlətimizin başçısı V Dünya Mədəniyyətlərarası Dialoq Forumunun açılış mərasimində nitq söyləyib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 2-də İslam Əməkdaşlıq Təşkilatının Baş katibi Yusif bin Əhməd Əl-Osaymini, BMT-nin Sivilizasiyalar Alyansı üzrə Ali nümayəndəsi Migel Anxel Moratinosu, Avropa Şurasının Baş katibinin müavini Qabriella Battaini-Draqonini qəbul edib.




## İlham Əliyev adına Olimpiya İdman Kompleksi yenidən qurulub







Ümummilli liderimiz Heydər Əliyev demişdir: ***“Bədən tərbiyəsi və idmanla geniş məşğul olan xalq, ölkə həmişə fiziki və mənəvi cəhətdən sağlam olur”.***

Ulu öndərin tövsiyələri əsas tutularaq Naxçıvan Muxtar Respublikasında idman sağlam gənc nəslin yetişməsində əsas amil kimi götürülür. Müasir idman infrastrukturu yaradılır, mövcud idman obyekt və qurğularından səmərəli istifadə diqqətdə saxlanılır. Görülən işlərin davamı olaraq İlham Əliyev adına Olimpiya İdman Kompleksi yenidən qurulmuşdur.

Mayın 2-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Olimpiya İdman Kompleksində görülən işlərlə tanış olmuşdur.

Məlumat verilmişdir ki, kompleksdə bütün zəruri infrastruktur yenilənmiş, tavan və döşəmələr dəyişdirilmiş, işıqlandırma, havalandırma və istilik sistemləri yenidən qurulmuşdur. Hər biri 220 tamaşaçı tutumu olan iki idman zalında mini futbol, basketbol, voleybol, güləş, karate, boks, ağır atletika və digər idman növləri üzrə yarış və məşqlərin keçirilməsi üçün lazımi şərait yaradılmışdır. Yarış nəticələrinin göstərilməsi üçün elektron məlumat lövhəsi qurulmuşdur. Kompleksdə idman ləvazimatlarının satış bölməsi və bufet istifadəyə verilmiş, iş, soyunub-geyinmə və digər xidməti otaqlarda lazımi şərait yaradılmışdır.

Ali Məclisin Sədri kompleksin imkanlarından səmərəli istifadə olunması və yaradılan şəraitin qorunub saxlanılması barədə tapşırıqlar vermişdir.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**

## Sosial müavinətlər artımla ödənilib

*Ölkəmizdə əhalinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində ardıcıl tədbirlər davam etdirilir.*

Bu məqsədlə ölkə başçısının “Əhalinin sosial müdafiəsinin gücləndirilməsi sahəsində əlavə tədbirlər haqqında” 2019-cu il 25 fevral tarixli Sərəncamı ilə cari il aprelin 1-dən yaşa görə sosial müavinətin məbləği 73 manatdan 130 manata, əlillik ümumi xəstəlik, hərbi xidmət dövründə xəstələnmə, əmək zədəsi və peşə xəstəliyi, hərbi əməliyyatlar keçirilən zonada olmaqla əlaqədar, Çernobıl Atom Elektrik Stansiyasında qəzanın ləğvi ilə bağlı baş verdikdə əlilliyə görə müavinətin məbləği I dərəcə əlilliyi olan şəxslər üçün 82 manatdan 150 manata, II dərəcə əlilliyi olan şəxslər üçün 61 manatdan 130 manata, III dərəcə əlilliyi olan şəxslər üçün 52 manatdan 110 manatadək artırılıb. Sərəncamla, həmçinin Azərbaycan Respublikasının ərazi bütövlüyü, müstəqilliyinin və Konstitusiya quruluşunun müdafiəsi ilə, 1990-cı ilin 20 Yanvar hadisələri ilə əlaqədar I dərəcə əlilliyi olan şəxslər üçün sosial müavinət 101 manatdan 150 manata, II dərəcə əlilliyi olan şəxslər üçün 81 manatdan 130 manata, III dərəcə əlilliyi olan şəxslər üçün 73 manatdan 110 manata, Çernobıl Atom Elektrik Stansiyasında hərbi xidmətlə və ya hərbi xidmət vəzifəsini yerinə yetirməklə əlaqədar I dərəcə əlilliyi olan şəxslər üçün 94 manatdan 150 manata, II dərəcə əlilliyi olan şəxslər üçün 81 manatdan 130 manata, III dərəcə əlilliyi olan şəxslər üçün 61 manatdan 110 manata çatdırılıb. Bununla yanaşı, Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamı ilə 18 yaşadək sağlamlıq imkanları məhdud uşaqlara ödənilən müavinət 82 manatdan 150 manata, ailə başçısını itirməyə görə sosial müavinətin məbləği 68 manatdan 80 manata, valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların qəyyumlarına (himayəçilərinə) ödənilən sosial müavinətin məbləği 61 manatdan 100 manata, müddətli həqiqi hərbi xidmət qulluqçularının uşaqlarına ödənilən sosial müavinətin məbləği 68 manatdan 100 manata, beşdən çox uşağı olan qadınlara ödənilən sosial müavinətin məbləği 33 manatdan 55 manata, uşağın anadan olmasına görə ödənilən birdəfəlik sosial müavinətin məbləği 109 manatdan 200 manata, dəfn üçün ödənilən birdəfəlik sosial müavinətin məbləği isə 146 manatdan 300 manata yüksəldilib.

Eyni zamanda son dəyişikliklərlə sosial qayğıya ehtiyacı olan şəxslərə ödənilən Azərbaycan Respublikası Prezidentinin təqaüdü də artırılıb. Nəticədə, müharibə ilə əlaqədar hərbi xidmət vəzifələrini yerinə yetirərkən sağlamlıqlarını itirərək əlil olmuş və Çernobıl Atom Elektrik Stansiyasında hərbi xidmətlə əlaqədar I dərəcə əlilliyi olan şəxslər üçün prezident təqaüdü 182 manatdan 250 manata, II dərəcə əlilliyi olan şəxslər üçün 158 manatdan 230 manata, III dərəcə əlilliyi olan şəxslər üçün 121 manatdan 210 manata çatıb. Həmçinin əlillik ümumi xəstəlik, hərbi xidmət dövründə xəstələnmə, əmək zədəsi və peşə xəstəliyi, hərbi əməliyyatlar keçirilən zonada olmaqla əlaqədar, Çernobıl Atom Elektrik Stansiyasında qəzanın ləğvi ilə əlaqədar baş verdikdə I dərəcə əlilliyi olan şəxslərə görə sosial müavinət alanlara Azərbaycan Respublikası Prezidentinin təqaüdü 73 manatdan 100 manata, 1941-1945-ci illər Böyük Vətən müharibəsi iştirakçılarına, İkinci Dünya müharibəsi dövründə Leninqrad şəhərinin mühasirəsi zamanı şəhərin müəssisələrində idarə və təşkilatlarında işləmiş və “Leninqradın müdafiəsinə görə” medalı, “Leninqrad mühasirəsində yaşayan” döş nişanı ilə təltif edilmiş şəxslərə (müharibə əlilləri istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin təqaüdü 121 manatdan 150 manata qədər artırılıb.

Əlavə edək ki, müvafiq fərmanla, həmçinin I dərəcə əlilliyi olan şəxslərə və sağlamlıq imkanları məhdud 18 yaşadək uşaqlara qulluq edənlərə 50 manat məbləğində, müharibə veteranlarına isə 55 manat məbləğində kommunal, nəqliyyat və digər xidmətlərə görə sosial müavinət əvəzinə 80 manat məbləğində Azərbaycan Respublikası Prezidentinin təqaüdü təsis edilib.

Qeyd edək ki, artıq muxtar respublikada sosial müavinətlərin artımla ödənilməsinə başlanılıb.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən pensiya və müavinətlərin, müvafiq kateqoriyalardan olan vətəndaşlara Prezidentin təqaüdlərinin artırılması əhalinin sosial müdafiəsinə göstərilən dövlət qayğısının növbəti təzahürüdür.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

3 may Beynəlxalq Mətbuat və Söz Azadlığı Günüdür

# Naxçıvanda mətbuat və söz azadlığı ümumi inkişafın tərkib hissəsidir

*1993-cü il dekabrın 20-də BMT Baş Assambleyasının qərarı ilə mayın 3-ü "Beynəlxalq Mətbuat və Söz Azadlığı Günü" elan edilib.*

Azərbaycanda söz, fikir və mətbuat azadlığına ulu öndər Heydər Əliyevin zəngin dövlətçilik təcrübəsi sayəsində nail olunub. Görkəmli dövlət xadiminin 1993-cü ildə xalqın təkidli tələbi ilə yenidən siyasi hakimiyyətə qayıdışından sonra müstəqil dövlət quruculuğunda mühüm rol oynayan kütləvi informasiya vasitələrinin cəmiyyətdə ictimai nüfuzunun artması, fəaliyyət dairəsinin genişlənməsi, qanunvericilik bazasının təkmilləşdirilməsi, qəzetlərin maddi-texniki bazasının yaxşılaşdırılması istiqamətində ardıcıl işlər görülmüşdür. Ümummilli liderin "Azərbaycan Respublikasında söz, fikir və məlumat azadlığının təmin edilməsi sahəsində tədbirlər haqqında" 1998-ci il 6 avqust tarixli Fərmanı ilə ölkəmizdə senzura ləğv edilmiş, mətbuat cəmiyyətin dinamik şəkildə demokratikləşməsinə təsir edən qüdrətli vasitəyə çevrilmişdir. Dahi şəxsiyyətin əsasını qoyduğu siyasət bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir, kütləvi informasiya vasitələrinin müstəqil fəaliyyəti, jurnalistlərin öz iradələrini azad şəkildə ifadə etməsi üçün hərtərəfli şərait yaradılır.

Bu gün muxtar respublikamızda bütün sahələrdə əldə olunan inkişaf və yüksəliş kütləvi informasiya orqanlarını da əhatə etmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasının dövlət mətbuat orqanlarının maddi-texniki vəziyyətini yaxşılaşdırmaq tədbirləri haqqında" 2000-ci il 29 mart tarixli Sərəncamı mətbuatın inkişafına öz töhfəsini vermişdir. Sərəncamdan sonra muxtar respublikanın bütün mətbuat orqanlarının normal fəaliyyəti üçün əlverişli şərait yaradılmış, onların maddi-texniki bazası daha da gücləndirilmişdir. 2005-ci ildə Naxçıvan Mətbuat Şurasının, 2007-ci ildə isə Televiziya və Radio Şurasının yaradılması bu sahənin inkişafını keyfiyyətcə yeni mərhələyə yüksəltmişdir. Bu gün muxtar respublikanın hər bir şəhər və rayonunun özünün mətbu orqanı vardır və onların dövriyyəliyi təmin edilmişdir.

2010-cu ildə "Şərq qapısı" qəzeti redaksiyası və "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyi üçün yeni binanın istifadəyə verilməsi və müasir mətbəə avadanlıqlarının quraşdırılması qəzetlərin günün tələblərinə uyğun nəşrinə şərait yaratmışdır. Muxtar respublikada bütün qəzet və jurnallar bu gün yüksək poliqrafik keyfiyyətlə nəşr olunur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun mətbuat işçiləri ilə keçirdiyi görüşlər, onların problemləri ilə maraqlanması, sosial vəziyyətlərinin yaxşılaşdırılması ilə bağlı konkret addımların atılması, dəyərli məsləhətlər verməsi jurnalistlərin fəaliyyəti üçün geniş imkanlar açır. Naxçıvan Muxtar Respublikası Ali Məclisində "Naxçıvan Muxtar Respublikasının kütləvi informasiya vasitələrinin fəaliyyəti və qarşıda duran vəzifələr" mövzusunda 2017-ci il yanvarın 28-də keçirilən müşavirə mətbuatı yeni mərhələdə inkişafa, jurnalistləri ölkəmizin maraqlarına xidmət edən materiallar hazırlamağa, internetin imkanlarından yararlanaraq geniş təbliğat işləri aparmağa sövq etmişdir.




Ali Məclis Sədrinin mətbuat orqanlarına olan hərtərəfli qayğısı kütləvi informasiya vasitələrində keyfiyyət dəyişikliyinin yaranmasına səbəb olmuşdur. Bunun nəticəsidir ki, qəzetlərin maddi-texniki bazası mərhələli şəkildə möhkəmləndirilmiş, yaradıcılıq imkanları artırılmışdır. Bu sahədə həyata keçirilən tədbirlər ardıcıl olaraq davam etdirilir. Görülən işlərin davamı kimi ötən il dövlət teleradiosuna, "Şərq qapısı", şəhər və rayon qəzetlərinə, Televiziya və Radio Şurasına ümumi dəyəri 250 min manata yaxın olan müxtəlif avadanlıqlar alınmışdır.

Muxtar respublikamızda qəzetlərlə yanaşı, televiziya və radioların da maddi-texniki bazası gücləndirilir. Bu gün Naxçıvan Dövlət Teleradiosu, o cümlədən "Naxçıvanın səsi" radiosu və "Kanal 35" televiziyası ən müasir rəqəmsal bazaya malikdir. Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin binası yenidən qurulmuş, yeni nəsil rəqəmsal teleradio avadanlıqları quraşdırılmışdır. Həmçinin Naxçıvan Dövlət Televiziyası və Radiosunun efir vaxtı əvvəlcə 4, sonra isə ardıcıl olaraq 8, 14, 17, 18 və 19 saatadək artırılmışdır. Hazırda muxtar respublikada "Şərq qapısı" ilə yanaşı, 8 şəhər və rayon qəzeti, 4 jurnal, universitet televiziya və radiosu da daxil olmaqla, 3 televiziya, 3 radio və 6 nəşriyyat, Naxçıvan Mətbuat Şurası, Televiziya və Radio Şurası fəaliyyət göstərir, kütləvi informasiya orqanlarında 400-dən artıq əməkdaş çalışır. Naxçıvan Dövlət Televiziyasının, "Şərq qapısı" qəzetinin internet saytlarının istifadəyə verilməsi, Naxçıvan Dövlət Televiziyasının və Radiosunun internet üzərindən yayımlanması, muxtar respublikada ölkə telekanallarının və informasiya agentliklərinin müxbir postlarının fəaliyyət göstərməsi, yeni texnologiyaların iqtisadiyyatın və həyatın bütün sahələrində tətbiqi, sürətli internetə çıxış imkanlarının yaradılması və rəqəmsal yayıma keçid Naxçıvanın informasiya blokadasının yarılmasına, qədim diyarın müasir sosial-iqtisadi inkişafı, tarixi və turizm potensialı haqqında məlumatların oxucu, tamaşaçı və dinləyicilərə daha operativ çatdırılmasına imkan verir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Dövlət Teleradiosunun maddi-texniki bazasının möhkəmləndirilməsi və yaradıcılıq işinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" 2018-ci il 6 fevral tarixli Sərəncamına əsasən "Nuhçıxan" İnformasiya Agentliyi yaradılmış, agentliyin saytı hazırlanmışdır. Ötən bir il ərzində "Nuhçıxan" İnformasiya Agentliyinin uğurlu fəaliyyəti Naxçıvanın informasiya blokadasının yarılmasına, qədim diyarın müasir sosial-iqtisadi inkişafı, tarixi və turizm potensialı haqqında məlumatların geniş oxucu, tamaşaçı və izləyici auditoriyasına çatdırılmasına istiqamətlənmişdir. Hazırda "Nuhçıxan" İnformasiya Agentliyi muxtar respublika ilə bağlı ən mühüm informasiyaları, şərh və rəyləri, analitik məqalələri, foto və video-informasiyaları, rəsmi materialları üç dildə dünyaya çatdırır.

Bu gün muxtar respublikada fəaliyyət göstərən jurnalistlər onlar üçün yaradılan şəraitdən səmərəli istifadə edərək cəmiyyətin informasiyaya olan ehtiyacının dolğun ödənilməsində səylə çalışır, muxtar respublikamızın sosial-iqtisadi və ictimai-mədəni həyatının, quruculuq və müasir inkişaf salnaməsinin yaradılmasına, milli-mənəvi dəyərlərimizin qorunması və təbliğinə öz töhfələrini verirlər. Sərbəst və müstəqil fəaliyyət göstərən muxtar respublika jurnalistləri cəmiyyətin həyatının müxtəlif sahələrinə aid aktual problemlərə, ictimaiyyəti narahat edən mövzulara geniş yer verir, televiziya və qəzetlərdə analitik və tənqidi materiallarla çıxış edir, onların həlli yollarının araşdırılmasına çalışırlar.

Muxtar respublikada informasiya təhlükəsizliyinin təmin edilməsi prinsiplərinə də ardıcıl əməl olunur. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin hərtərəfli qayğısı ilə dövlət orqanları və kütləvi informasiya vasitələri üçün geniş imkanlar yaradılmışdır. Müasir inzibati binaların istifadəyə verilməsi, əməkdaşlar üçün hərtərəfli iş şəraitinin yaradılması, elektron hökumətin tətbiqi, sürətli internetə çıxış və yeni texnologiyalardan istifadə bu sahədə fəaliyyətin səmərəli təşkilinə xidmət edir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2005-ci il 18 may tarixli Sərəncamına əsasən muxtar respublikanın mərkəzi icra hakimiyyəti orqanlarında mətbuat və ictimaiyyətlə əlaqələr üzrə vəzifələrin təsis olunması dövlət orqanları ilə kütləvi informasiya vasitələri arasında informasiya siyasətinin həyata keçirilməsində yeni mərhələnin əsasını qoymaqla yanaşı, həm də informasiya ehtiyatlarının təhlükəsizliyinin təmin olunması sahəsində konkret istiqamətlər müəyyənləşdirmişdir.

Ötən dövrdə mətbuat xidmətlərinin fəaliyyəti üçün lazımi şərait yaradılmış, mərkəzi icra hakimiyyəti orqanlarının mətbuat xidmətlərinin əməkdaşlarının fəaliyyəti gücləndirilmiş, bu məsələ ilə bağlı müşavirələr, görüş və seminarlar keçirilmiş, kadr islahatı aparılmış, yeni fəaliyyət istiqaməti müəyyənləşdirilmişdir. Nəticədə, mətbuat xidmətlərinin teleradio və qəzetlərlə, o cümlədən informasiya agentlikləri ilə əlaqələri gücləndirilmiş, təşkilatların aylıq və rüblük fəaliyyəti ilə bağlı məlumatlar operativ olaraq oxucu, tamaşaçı və dinləyicilərə çatdırılmışdır. Mərkəzi icra hakimiyyəti orqanlarının internet saytlarında mətbuat xidməti bölməsinin yaradılması da bu işdə faydalı olmuş, bütün məlumatlar həmin bölmədə yerləşdirilərək ictimailəşdirilmişdir.

Muxtar respublikanın yaşayış məntəqələrinə fiber-optik kabel xətlərinin çəkilişi və sürətli internetə çıxış imkanının yaradılması insanların informasiya tələbatının tam dolğun ödənilməsinə imkan verir. Artıq ən ucqar kəndlərdə belə, genişzolaqlı internet, eləcə də IP və rəqəmsal televiziya xidmətləri göstərilir. "Naxtel" mobil operatorunun fəaliyyətə başlaması isə Naxçıvanda 4G internetdən istifadəyə geniş imkanlar açmışdır. Bu gün muxtar respublika sakinlərinin genişzolaqlı və mobil internetə dayanıqlı çıxış imkanları vardır. Muxtar respublikanın şəhər və rayon mərkəzləri ilə yanaşı, kəndlərində də müasir poçt xidmətlərinin təşkil olunması dövri mətbuatın oxuculara vaxtında çatdırılmasını təmin edir. Bütün bunlar insanların informasiya əldə etmək hüququnun təmin olunması sahəsində görülən işlərin tərkib hissəsidir.

Sürətli internet təminatı sosial şəbəkələrdən sərbəst istifadəyə imkan verir. Artıq muxtar respublikada kütləvi informasiya vasitələrinin, eləcə də yüz minlərlə sakinin "Youtube", "Facebook", "Instagram" və digər sosial şəbəkələrdə səhifələri vardır. Bu da informasiyaların daha operativ əldə edilməsi ilə yanaşı, muxtar respublikanın tarixi, mədəniyyəti, turizm potensialı və müasir inkişafı haqqında təbliğat işinin aparılmasına da şərait yaradır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***"Kütləvi informasiya vasitələri ictimai nəzarət orqanı kimi fəaliyyətlərini gücləndirməli, milli dəyərlərimiz təbliğ edilməli, qəbul olunmuş dövlət proqramlarının icrası diqqətdə saxlanılmalıdır. Teleradio və qəzetlərdə informasiya-məlumatlandırma işi düzgün qurulmalı, sosial şəbəkələrdə ictimaiyyətin düzgün istiqamətləndirilməsi üçün sistemli iş təşkil olunmalıdır".***

Muxtar respublika kütləvi informasiya vasitələri işçiləri verilən tapşırıqları əldə rəhbər tutaraq doğma diyarımızın inkişafına bundan sonra da öz töhfələrini verəcək, mətbuat və söz azadlığı üçün yaradılan imkanlardan istifadə edərək Ali Məclis Sədrinin müəyyənləşdirdiyi vəzifələrin icrası istiqamətində səylə çalışacaqlar.

**"Şərq qapısı"**

## İlk təlim yekunlaşıb



Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə Azərbaycan Mikromaliyyə Assosiasiyası tərəfindən icra olunan "Qadınların dayanıqlı inkişaf üçün səlahiyyətləndirilməsi" layihəsi çərçivəsində Naxçıvan Muxtar Respublikasında maliyyə savadlılığı üzrə "Gələcəyini planlaşdır" mövzusunda ilk təlim yekunlaşıb.

Naxçıvan şəhərində keçirilən ikigünlük təlim zamanı Azərbaycan Mikromaliyyə Assosiasiyasının layihə rəhbəri Sevinc Rüstəmova tərəfindən təlim iştirakçılarına pul vəsaitlərinin idarə olunması, büdcə planlaşdırılması, borc idarəetmə üsulları, mövsümi xərclərin idarəedilməsi, qənaət vərdişləri və digər bacarıqlara bağlı slayd vasitəsilə geniş məlumatlar verilib. Qarşılıqlı diskussiya şəraitində keçirilən təlimlərdə iştirakçıların sualları cavablandırılıb.

Muxtar respublikanın Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova və layihə rəhbəri Sevinc Rüstəmova yekun tədbirdə təlimdə iştirak edən qadınları təbrik edib, 55 təlim iştirakçısına sertifikat və hədiyyələr təqdim olunub.

İştirakçılardan Səriyyə Hüseynova, Züriyyə Musayeva, Gülnar Məmmədova, Xanım Xudadanova və başqaları təlimin keçirilməsinə və qadınlara göstərilən qayğıya görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlıq ediblər.

Qeyd edək ki, "Qadınların dayanıqlı inkişaf üçün səlahiyyətləndirilməsi" adlı layihə Avropa İttifaqı və BMT-nin İnkişaf Proqramı tərəfindən maliyyələşdirilən və icra olunan "Genderə həssas dayanıqlı inkişaf məqsədlərinin həyata keçirilməsində vətəndaş cəmiyyətinin rolunun artırılması" adlı genişmiqyaslı proqramı çərçivəsində həyata keçirilir.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

## Həmyerlimiz beynəlxalq konfransda iştirak edib

Beynəlxalq Endoskopik Laparoskopik Cərrahiyyə Dərnəyinin təşkilatçılığı ilə Şimali Kipr Türk Respublikasında 14-cü Endoskopik laparoskopik cərrahiyyə konfransı keçirilib. Türkiyə Endoskopik Cərrahiyyə Dərnəyinin sədri professor Levent Avtanın dəvəti ilə Naxçıvan Diaqnostika-Müalicə Mərkəzinin həkim-cərrahı Nazim İbrahimov da bu konfransda iştirak edib.

Tədbir təbabətin ən müasir nailiyyətlərindən biri olan laparoskopik cərrahiyyəyə həsr edilmişdi. Konfransın əsas məqsədi dünyada aparılan əməliyyatların və tibbi yeniliklərin Azərbaycanda da tətbiq edilməsinə dair ən müasir protokollarla mütəxəssisləri tanış etmək olub. Beynəlxalq konfransda dünyanın müxtəlif ölkələrindən gəlmiş 100-ə yaxın iştirakçı olduğunu bildirən Nazim həkim bizimlə söhbətində qeyd etdi ki, həmin tədbirdə son illərdə inkişaf edən texnologiyanın cərrahiyyədə yaratdığı imkanlar, bu texnologiyanın tətbiqi ilə aparılan ən son cərrahiyyə əməliyyatları barədə ətraflı məlumatlar verilib. Konfrans müddətində klinik və nəzəri praktikalar keçirilib.




Nazim İbrahimov həmin praktika və məşğələlərdə fəal şəkildə iştirak edib və sertifikat alıb. O, Naxçıvanda həyata keçirilən endoskopik cərrahiyyə ilə əlaqədar təcrübələrini bölüşüb. Bildirib ki, hazırda Naxçıvan Diaqnostika-Müalicə Mərkəzində ən müasir tibbi avadanlıq, aparat və cihazların alınıb qurulması müxtəlif əməliyyatların kəmiyyət və keyfiyyət göstəricilərinə öz müsbət təsirini göstərir. Həmin tibbi cihazların köməyi ilə artıq bir neçə ildir ki, endoskopik cərrahiyyənin ən son metodları tətbiq edilməklə mərkəzimizdə qapalı prostat vəzinin adenoması əməliyyatı (TUR), öd kisəsinin endoskopik əməliyyatları (laparoskopik xolesistektomiya), laparoskopik appendektomiya, laparoskopik kistektomiya və bunun kimi bir sıra müasir cərrahiyyə əməliyyatları uğurla icra olunmaqdadır.

**Hüseyn ƏSGƏROV**

Yeni nəşrlər

# Naxçıvanlı yazıçılar "Məktəb"də

*Otuza yaxın kitabın, 330-dan artıq elmi, çoxsaylı qəzet məqalələrinin müəllifi, dörd kitabı və 50-yə yaxın elmi məqaləsi xarici ölkələrdə işıq üzü görən Hüseyn Həşimli uzunmüddətli tədqiqatlarının nəticəsi olan "Naxçıvanlı yazıçılar və "Məktəb" jurnalı" adlı yeni kitabını elmi-ədəbi, pedaqoji ictimaiyyətə təqdim edib.*

Xatırladaq ki, Əməkdar elm xadimi, filologiya üzrə elmlər doktoru, professor H.Həşimli müxtəlif vaxtlarda M.Hadi, A.Divanbəyoğlu, A.Sur, A.Səhhət, Ə.Müznib, S.Səlmasi, Ə.Səbur, N.Bəsir və bəzi digər ədiblərin bir sıra əsərlərini iyirminci əsrin ilk onilliklərində aid müxtəlif qəzet və jurnallardan, kitablardan, həmçinin arxivlərdən toplayaraq nəşr etdirib və ilk dəfə müasir oxuculara çatdırıb. Onların sırasında Naxçıvan ədəbi mühitinin yetirmələri olan E.Sultanovun, Ə.Qəmküsarın, Ə.Səbrinin, Ə.Qəribin, M.Sidqinin, M.Təhmasibin də əsərləri yer alıb. Bakıda 1910-1911-ci illərdə çıxmış "Yeni füyuzat" məcmuəsinin, M.Sidqinin redaktorluğu ilə nəşr olunmuş "Şeypur" jurnalının (1918-1919-cu illər) bütün saylarının transliterasiya edilərək kitablar halında nəşri də H.Həşimli tərəfindən həyata keçirilib.

Ədəbiyyatşünas alimin "Naxçıvanlı yazıçılar və "Məktəb" jurnalı" adlı yeni monoqrafiyası da onun bu yöndəki araşdırmalarının davamı kimi özünəməxsus əhəmiyyət daşıyır. Bakıda 1911-1920-ci illərdə uşaqlar üçün nəşr olunmuş "Məktəb" jurnalı şagirdlərin dünyagörüşünü zənginləşdirmək, biliklərini dolğunlaşdırmaq, sağlam ruhda tərbiyəsinə xidmət göstərmək məqsədi daşıyan, ədəbi və didaktik materiallarla zəngin olan bir dərgi kimi Azərbaycan pedaqoji fikir tarixində mühüm iz qoyub. Həmin jurnalın səhifələrində Naxçıvan ədəbi mühitinin yetirmələri də müxtəlifjanrlı əsərlərlə çıxış ediblər. Lakin indiyədək həmin materialların əksəriyyəti lazımi tədqiqata cəlb olunmamışdı. Bu zərurəti nəzərə alan H.Həşimli naxçıvanlı yazıçıların "Məktəb" jurnalı ilə çoxşaxəli yaradıcılıq əlaqələrini ilk dəfə sistemli şəkildə araşdırıb.

Müəllif monoqrafiyanın "Hüseyn Cavidin şeirləri "Məktəb" jurnalında" adlı ilk fəslində yazır: "Naxçıvan ədəbi mühitinin yetirməsi olan bir sıra şair və yazıçılar "Məktəb" jurnalı ilə yaxından əlaqə saxlamış, onun fəaliyyəti ilə maraqlanmış, dərginin səhifələrində çıxış etmişlər. Bu baxımdan məşhur romantik ədibimiz H.Cavidin, yazıçı-publisistlərdən M.S.Səfərovun, Ə.S.Qasımovun, Ə.Q.Naxçıvanlının və digərlərinin adlarını xatırlada bilərik. Adları çəkilən müəlliflərin "Məktəb" dərgisi ilə əlaqələri bir neçə istiqamət üzrə olmuşdur. Onlar həm jurnalın qayğılarına diqqət yetirmiş, bu barədə mətbuatda məqalələr, məlumatlar vermiş, həm də dərginin səhifələrində orijinal əsərlər və tərcümələr dərc etdirmişlər".




H.Həşimli həmin fəsildə H.Cavidin "Məktəb" jurnalında çıxmış "İlk bahar" və "Bir qız" şeirlərinə nəzər salıb, həmin bədii nümunələrin jurnaldakı ilk variantlarını şairin sonrakı kitablarında gördüyümüz mətnlərlə ilk dəfə müqayisəli təhlilə cəlb edib, fərqləri aydınlaşdırıb. H.Cavidin hazırda "Qız məktəbində" adı ilə tanınan, "Məktəb" jurnalında isə "Bir qız" başlığı ilə verilmiş şeirinin yazılma tarixi ilə bağlı bəzi ədəbiyyatşünaslıq əsərlərində yer almış fərqli fikirlərə də münasibət bildirən tədqiqatçı müvafiq dəqiqləşdirmələr aparıb. Şairin sovet dövründə çıxmış kitablarına daxil edilməyən "İsmayıl bəy" şeiri də bu fəsildə özünün elmi-ədəbi təhlilini tapıb. Romantik ədibin hər üç şeiri ideya-bədii baxımdan təhlil olunaraq uşaq ədəbiyyatımızın diqqətəlayiq nümunələri kimi dəyərləndirilib.

"Məktəb" jurnalında çıxış etmiş naxçıvanlı yazıçılardan Məmmədəli Sidqi, Əli Səbri, Ələkbər Qərib kimi unudulmuş müəllifləri oxuculara daha yaxşı tanıtdırmaq üçün sonrakı müvafiq fəsillərin əvvəllərində onların həyat və yaradıcılığı ilə bağlı verilən müfəssəl məlumatlar alınan təəssüratı uğurla tamamlayır. Məşhur maarifçi ədib Məhəmməd Tağı Sidqinin oğlu, tanınmış yazıçı-publisist Məmmədəli Sidqinin adı ədəbiyyat, mətbuat, maarif və mədəniyyət tariximizdə önəmli yerlərdən birini tutur. Hüseyn Həşimli buna monoqrafiyanın "Məmmədəli Sidqinin hekayələri ədəbi-pedaqoji yaddaş işığında" fəslində işıq salır. Məmmədəli Sidqinin 1914-1915-ci illərdə "Məktəb" jurnalında dərc olunmuş "Məktəbə gec gələn şagird", "Bədnəfs uşaq", "Çalışqan məktəb şagirdi dilindən", "Mütaliə sevən Əhməd", "Cümə günləri", "Dərsə həvəsi olmayan şagird" və digər pedaqoji-didaktik hekayələrini ilk dəfə aşkara çıxarıb tədqiqata cəlb edən H.Həşimli onların əsas məziyyətlərini, tərbiyəvi qayəsini aydınlaşdırıb, bu əsərlərin Məhəmməd Tağı Sidqinin pedaqoji nəsrindən gələn ənənələrlə bağlılığını da diqqətə çatdırıb. Müəllif yazır ki, M. Sidqi uşaq psixologiyasına dərindən bələd olduğu üçün onun hekayələrində uşaq dünyası bütün yönləri ilə qələmə alınırdı. Və "Məktəb"də dərc olunan bu hekayələr öz tərbiyəvi və didaktik təsirinə görə jurnalın dəyərini artırırdı.

Naxçıvan ədəbi mühitinin yetirmələrindən olan Əli Səbri Qasımovun çoxşaxəli yaradıcılıq fəaliyyətinə nəzər salan monoqrafiya müəllifi üçüncü fəsildə onun "Məktəb" jurnalı ilə əlaqələrini geniş şəkildə araşdırıb. Ə.Səbrinin tərcüməçilik fəaliyyəti, o cümlədən 1912-ci ildə, hələ Qori Müəllimlər Seminariyasının tələbəsi ikən məşhur rus yazıçısı Lev Tolstoydan etdiyi "Kəndli və su adamı" hekayəsinin jurnalda nəşrinin izlədiyi tərbiyəvi qayə barədə deyilənlər bu baxımdan maraq doğurur. Ə.Səbrinin o zaman "İqbal" qəzetində "Məktəb" jurnalının nəşrinə kömək, onun təbliği məqsədilə dərc etdirdiyi məqaləyə də diqqət yetirilməsi mövzunun tədqiqinə tamlıq gətirir. Analoji mündəricəli digər yazılar da bu fəsildə öz təhlilini tapıb. Bu kimi materiallar göstərir ki, naxçıvanlı yazıçılar əsl ziyalı mövqeyində dayanaraq "Məktəb"in problemləri ilə də maraqlanır, onun abunə və satış məsələlərində köməklərini əsirgəmirdilər.

Naxçıvan ədəbi mühitinin daha bir unudulmuş nümayəndəsi Ələkbər Qərib Abbasov da Qori Seminariyasında təhsil alarkən "Məktəb" jurnalı ilə əməkdaşlıq edib. İstedadlı sənətkarın çoxşaxəli yaradıcılığı fonunda bu jurnaldakı fəaliyyətini araşdıran H.Həşimli yazıçının "Bacı və qardaş" hekayəsini daha ətraflı şəkildə nəzərdən keçirib, onu uşaqların yaş və dünyagörüşünə uyğun bədii nümunə kimi dəyərləndirib. Həmin əsər də monoqrafiyada ilk dəfə araşdırmaya cəlb olunan materiallardandır. Hekayə ilə bağlı bəzi məqamların dəqiqləşdirilməsi də elmi-ədəbi təhlillərə əsaslanır.

Çoxsaylı elmi-ədəbi qaynaqlar və yeni aşkarlanmış materiallar əsasında ərsəyə gəlmiş "Naxçıvanlı yazıçılar və "Məktəb jurnalı" vaxtında işıq üzü görmüş bir kitab kimi həm də o cəhətdən razılıq doğurur ki, müəllif araşdırılan əsərləri əlavələr bölməsində tam halda oxuculara təqdim edib. Bu isə kitabın dəyərini xeyli artırıb. Həmin əsərlərə tanışlıq göstərir ki, onlar bu gün də uşaqların mütaliə materialları sırasında layiqli yer tuta bilər.

*Mətbuat tariximizin bir sıra qaranlıq məqamlarını tədqiqat obyektinə çevirmiş Hüseyn Həşimlinin yeni monoqrafiyasını muxtariyyətimizin 95 illiyinə yubiley hədiyyəsi hesab etməklə ona yeni yaradıcılıq uğurları arzusu ilə*

**Muxtar MƏMMƏDOV**

*Naxçıvan Dövlət Tarix Muzeyinə Babək rayonunun Nehrəm kənd sakini, Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi Akif Hacıyev, Aşağı Buzqov kənd sakini Elman Bayramov, Naxçıvan şəhər sakinləri Hüseyn Kazımov və Rəcəb Rəcəbov tərəfindən qədim tariximizə, zəngin mədəniyyətimizə aid 241 yeni eksponat təqdim edilib.*

# Naxçıvan Dövlət Tarix Muzeyinə yeni eksponatlar təqdim edilib



Bu münasibətlə mayın 2-də Naxçıvan Dövlət Tarix Muzeyində keçirilən tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikasının Mədəniyyət naziri Natavan Qədimova bildirib ki, muzeylər xalqımızın keçmişini özündə yaşadan, ötən əsrlərin müxtəlif tarixi hadisələrindən xəbər verən eksponatları komplektləşdirən, qoruyan, saxlayan, nümayiş və təbliğ edən maddi-mənəvi xəzinədir.

"Qədim diyarımızda da muzeylərin fəaliyyətinin canlandırılması, yeni muzeylərin yaradılması sahəsində mühüm işlər görülür, bu mədəniyyət ocaqları muzeyşünaslığın yeni nailiyyətlərinə əsaslanaraq qurulur, Azərbaycan tarixinin yeni uğurlu səhifələri muzey ekspozisiyalarında əksini tapır", – deyən Natavan Qədimova bildirib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı nəticəsində muxtar respublikada tarix-mədəniyyət abidələrinin qorunması, onların bərpası və konservasiyası son illər ərzində geniş vüsət alıb, yeni-yeni muzeylər istifadəyə verilib, maddi-texniki bazaları möhkəmləndirilib.

Qeyd edilib ki, bu gün Mədəniyyət Nazirliyinin tabeliyində 30 muzey və muzeytipli müəssisə fəaliyyət göstərir. Muxtar respublikanın muzeylərində xalqımızın tarixini, həyat tərzini, adət-ənənələrini özündə əks etdirən 140 mindən çox maddi-mədəniyyət nümunələri mühafizə olunur.

Diqqətə çatdırılıb ki, muxtar respublikada muzey fondlarının zənginləşdirilməsi, onların yeni eksponatlarla təmin olunması daim diqqət mərkəzində saxlanılır. Bu prosesdə muzeylərin əməkdaşları və muxtar respublika vətəndaşları yaxından iştirak edirlər. Ötən il muxtar respublika muzeylərinə 1564, bu ilin ilk 4 ayı ərzində isə 571 eksponat daxil olub.

Bildirilib ki, bu günədək muxtar respublikada fəaliyyət göstərən müxtəlif profilli muzeylərdə maddi-mədəniyyət nümunələrinin, qədim əlyazma və kitabların, rəsm əsərlərinin təqdimat mərasimləri keçirilib. Bu gün keçirilən təqdimat mərasimi isə öz spesifikasına görə fərqlənir. 1941-45-ci illər müharibəsinin 74 illiyi ərəfəsində Vətənimi qorumaq uğrunda bu müharibəyə qoşulmuş həmvətənlərimizin ailələri tərəfindən onlara məxsus şəxsi əşyaların muzeyə hədiyyə edilməsi bu sahədə görülən işlərə böyük töhfədir. Bu həm də muzeylərimizə olan etimaddan irəli gəlir. İkinci Dünya müharibəsi veteranları Kazım Kazımovun və Qadir Rəcəbovun övladları Hüseyn Kazımov və Rəcəb Rəcəbov tərəfindən muzeyə təqdim olunan yeni eksponatlar muzeyin fondunun və ekspozisiyasının daha da zənginləşməsinə imkan verəcəkdir.

Nazir mədəniyyətimizin və tariximizin təbliğinə göstərdiyi böyük diqqət və qayğıya görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə mədəniyyət işçiləri adından minnətdarlıq edib.

Tədbirdə Naxçıvan Dövlət Tarix Muzeyinin direktoru, Naxçıvan Muxtar Respublikasının Əməkdar mədəniyyət işçisi Nizami Rəhimov, eksponat təqdim edənlərdən Hüseyn Kazımov və Rəcəb Rəcəbov çıxış edərək muxtar respublikadakı muzey ekspozisiyalarının zənginləşməsində bu cür təqdimatların keçirilməsinin əhəmiyyətindən danışıblar.

**Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mətbuat xidməti**

# Ən yaxşı zenit-raket artilleriya batareyası



2019-cu ilin döyüş hazırlığı planına əsasən Naxçıvan Qarnizonu qoşunlarında "Ən yaxşı zenit-raket artilleriya batareyası" adı uğrunda yarış keçirilib. Yarışa daşınan zenit raket komplekslərinin və 23 millimetrlik zenit qurğularının heyətləri, eləcə də hava düşmənini təqlid edən ordu aviasiyası cəlb edilib.

Yarış zamanı şəxsi heyətin ixtisas hazırlığı üzrə praktik bacarıqları və bilik səviyyəsi yoxlanılıb, normativlərin şərtinə uyğun fəaliyyətləri qiymətləndirilib.

# Əmək yarmarkalarında 241 nəfər işlə təmin olunub

Aprel ayı ərzində Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən muxtar respublikada növbəti əmək yarmarkaları keçirilib.

Əvvəldən nəzərdə tutulmuş qrafik əsasında keçirilən əmək yarmarkalarında işaxtaranlara 223 idarə, müəssisə və təşkilatdan 1861 boş iş yeri təqdim edilib. Təqdim olunmuş boş iş yerlərindən 586-sı fəhlə, 1211-i qulluqçu, 64-ü xidmət sahələrini əhatə edib.

Gənclərin, qadınların və sağlamlıq imkanları məhdud şəxslərin məşğulluğunun təmin olunması da diqqət mərkəzində saxlanılıb. İşlə təmin olunanlardan 68 nəfərini gənclər, 11 nəfərini sağlamlıq imkanları məhdud şəxslər, 48 nəfərini isə qadınlar təşkil edir.

Əmək yarmarkalarında, həmçinin sosial müdafiəyə daha çox ehtiyacı olan vətəndaşlardan 1 nəfərin kvota (norma) yerinə göndərilməsi təmin edilib.

2019-cu ilin aprel ayında təşkil edilən əmək yarmarkalarının yekun təhlilinə əsasən məşğulluq mərkəzləri tərəfindən Naxçıvan şəhərindən 45, Şərur rayonundan 43, Babək rayonundan 30, Ordubad rayonundan 27, Culfa rayonundan 32, Şahbuz rayonundan 15, Kəngərli rayonundan 36, Sədərək rayonundan isə 13 nəfər olmaqla, ümumilikdə, 241 nəfər müxtəlif xarakterli işlərlə təmin edilib.

**Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti**

# Gənclər Azərbaycanın gələcəyidir

Muxtar respublika ümumtəhsil məktəblərinin IX-XI sinif şagirdləri arasında ümummilli lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr edilmiş "Gənclər Azərbaycanın gələcəyidir" mövzusunda inşa yazı müsabiqəsi keçirilib.

Müsabiqə iki mərhələdə təşkil olunub. Belə ki, birinci – şəhər (rayon) mərhələsi 1-19 aprel 2019-cu il tarixlərdə ümumtəhsil məktəblərinin şagirdləri arasında keçirilib və 63 şagird qalib olaraq muxtar respublika mərhələsində iştirak etmək hüququ qazanıb. Muxtar respublika mərhələsi isə 1 may 2019-cu il tarixdə keçirilib və biri I, ikisi II, üçü III, üçü isə həvəsləndirici yer olmaqla, cəmi 9 qalib müəyyən edilib.

**Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti**

# Şagirdlər təlim mərkəzində

Məktəblilərin hərbi-vətənpərvərlik ruhunda tərbiyəsi və hərbi xidmətə düzgün istiqamətləndirilməsi məqsədilə Sədərək rayonunda fəaliyyət göstərən tam orta məktəblərin şagirdləri təlim mərkəzində praktik məşğələyə cəlb ediliblər.



Məşğələ zamanı müxtəlif atıcı silahların, snayper tüfənglərinin, tank əleyhinə vasitələrin taktiki-texniki xüsusiyyətləri haqqında şagirdlərə ətraflı məlumat verilib, onları maraqlandıran suallar cavablandırılıb. Sonra məktəblilər avtomatdan praktik atışları yerinə yetiriblər.

# Baxış-müsabiqə

Əlahiddə Ümumqoşun Orduda səhra şəraitində əsgərlərin yemək və su tələbatını ödəmək üçün təyin edilmiş arxa təminatı avtomobil texnika və qurğularına baxış-müsabiqəsi keçirilib, qaliblər müəyyənləşdirilib.



Hərbi hissə və bölmələr baxış-müsabiqəsində səyyar soyuducular, səyyartipli çörək zavodları, su çənləri, səhra mətbəxləri və digər ləvazimatlarla iştirak ediblər.

**Nəriman NƏCƏFOV**

# Boks üzrə muxtar respublika turnirinə yekun vurulub



*Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr edilmiş “Heydər Əliyev kuboku” uğrunda boks üzrə keçirilən Naxçıvan Muxtar Respublika turnirinə yekun vurulub.*

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə Boks Federasiyasının birgə təşkil etdiyi yarış üç gün davam edib. Beynəlxalq Boks Federasiyasının mövcud qaydalarına uyğun olaraq keçirilən turnirdə 2001-2002-ci illər təvəllüdlü gənclər və böyüklər, 2003-2004-cü illər təvəllüdlü yeniyetmələr 12 çəki dərəcəsində mübarizə aparıblar.

Dünən turnirin bağlanış mərasimi keçirilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildikdən sonra final görüşlərinə start verilib.





Yarışın yekun nəticələrinə əsasən 38, 40, 42, 46, 50, 54, 57, 60, 64, 69, 75 və +81 kiloqram çəki dərəcələrində müvafiq olaraq Sinan Əbilov, Ramil Babayev, Alişan İsmayılov, Nazim Abazərli, Nizami Novruzov, Ayxan Quliyev, Hüseyn Hüseynov, Ayxan Süleymanov, Cəbi İsayev, İbrahim Cəfərzadə, Yuris Allahverdiyev və Sərvər Abdullayev turnirin qalibi adını qazanıblar.

Qızların mübarizəsində isə Duyğu Hüseynova (48 kiloqram) və Nuray Hümbətova (50 kiloqram) hamıdan güclü olublar.

Komanda hesabında isə “Naxçıvan” komandası turnirin baş mükafatını qazanıb.

Sonda qaliblər diplom və hədiyyələrlə mükafatlandırılıblar. Qaliblərə mükafatları Naxçıvan Muxtar Respublikası Boks Federasiyasının sədri Məhərrəm Talıbov və Azərbaycan Respublikası Gənclər və İdman nazirinin müavini İsmayıl İsmayılov təqdim ediblər.

**✍ Ceyhun MƏMMƏDOV**

# Festival iştirakçıları Naxçıvan şəhərinin mədəniyyət ocaqlarında olublar



“Naxçıvan-2019” Beynəlxalq Şahmat Festivalının iştirakçıları və ailə üzvləri Naxçıvan şəhərinin mədəniyyət müəssisələri ilə tanış olublar. Heydər Əliyev Sarayı, Naxçıvan Dövlət Rəsm Qalereyası, Azərbaycan Miniatür Kitab Muzeyinin Naxçıvan filialı, Dövlət Bayrağı Meydanı və Muzeyi ilə tanışlıq onlarda xoş təəssürat yaradıb.

Qonaqlardan bir neçəsi Beynəlxalq Şahmat Festivalı, eləcə də qədim diyar haqqında təəssüratlarını “Şərq qapısı” qəzeti ilə bölüşüblər.

***Reza İbrahimi – İran İslam Respublikası:***



– Artıq 3 ildir ki, Naxçıvanda təşkil olunan Beynəlxalq Şahmat Festivalında iştirak edirəm. İlbəil bu festivala maraq, eləcə də oyunlardakı rəqabət hissi, mübarizə əzmi daha da yüksəlir. Mən “B” qrupunda mübarizəyə başlamışam və bu dəfə yaxşı nəticə göstərəcəyimə inanıram. İdman oyunları elədir ki, burada udmaq da var, uduzmaq da. Əsas olan odur ki, uduzanda da ruhdan düşməyib öz səhvlərini tapıb aradan qaldırasan. Bax, o zaman qələbə də səninlə olacaq. İstənilən halda mənim üçün bu festivalda iştirak qalibiyyətə bərabərdir. Çünki Naxçıvanda keçirilən bu idman bayramı mənə digər ölkə şahmatçıları ilə ünsiyyət qurmağa, fikirlərimi bölüşməyə şərait yaradır.

Onu da deyə bilərəm ki, ilbəil naxçıvanlı gənc şahmatçıların uğurlarının çoxalması da diqqətimdən yayınmır. Fikrimcə, burada idmana, xüsusilə də şahmata böyük diqqət göstərilir və nəticə də gözlər önündədir.

Bura hər dəfə gəlişimdə qədim diyarın gəzməli-görməli yerlərinə də səyahət etməyi çox xoşlayıram. Budəfəki gəlişimdə ailəmi də özümlə bərabər gətirdim ki, onlar da bu heyrətamiz məkanı doyunca seyr edib, gözəlliklərdən zövq alsınlar. Fürsətdən istifadə edib təşkilatçılara da öz minnətdarlığımı bildirirəm.

Bakı şəhərindən olan gənc şahmatçı ***Arif Cəbrayıllı*** “C” qrupunda mübarizə aparır. Yarışa qələbə ilə başlayan şahmatçı festivalla bağlı fikirlərini bizimlə bölüşərək dedi:



– Kiçik yaşlarımdan şahmata böyük həvəs və marağım olub. Artıq bir neçə ildir ki, iştirak etdiyim yarışlarda uğurlar qazanıram. Təbii ki, bir idmançının uğurlara nail olmasında əsas meyar öz üzərində səylə çalışmasıdır. Müəllimlərimin mənə verdiyi biliklərdən maksimum faydalanaraq gələcəkdə bu zəka idman növündə daha böyük nailiyyətlərə imza atmaq niyyətindəyəm.

Artıq ikinci ildir ki, Naxçıvanda təşkil olunan Beynəlxalq Şahmat Festivalına qatılıram. Sevinirəm ki, builki festival ötən ilkinə nisbətən daha rəngarəng və maraqlıdır. Çünki budəfəki festivala qatılan ölkələrin, idmançıların sayı da artıb. Yarışa qələbə ilə başladığım üçün çox şadam və inanıram ki, buradan yüksək nəticə ilə geri dönəcəyəm. Ötən il olduğu kimi, bu il də festival çərçivəsində Naxçıvanın gəzməli-görməli yerlərinə gedəcəyik. Artıq bu gün Naxçıvan şəhərinin bir neçə mədəniyyət müəssisəsində olduq. Xüsusilə Dövlət Bayrağı Muzeyindəki eksponatlar diqqətimi çəkdi, dövlətçiliyimizlə bağlı ətraflı məlumat öyrənə bildim. Fikrimcə, biz yerli idmançılar üçün ölkəmizin hər yerinin tarixi, mədəniyyəti və adət-ənənəsini öyrənmək vacibdir. Ən əsası ona görə ki, əcnəbi şahmatçılara Vətənimiz haqqında ətraflı məlumat vermək imkanımız olsun. Festival iştirakçıları adından yaradılan şərait üçün təşkilatçılara minnətdarlıq edirəm.

Söhbətə qoşulan ***Qazaxıstan Respublikasının vətəndaşı Saule Jardemova*** dedi: – Övladlarım ilk dəfədir ki, muxtar respublikada təşkil olunan “Naxçıvan-2019” Beynəlxalq Şahmat Festivalında iştirak edirlər. Burada şahmatçılar üçün çox gözəl şərait yaradılıb. Bu mənada, bir valideyn kimi minnətdarlıq hissi ilə demək istərdim ki, Naxçıvanda qonaqpərvərlik və xoş münasibət görürük.



İkinci gündür ki, Naxçıvandayıq. Burada olduğumuz müddətdə qədim diyardakı mədəniyyət müəssisələri ilə tanışlıq bizdə xoş təəssürat yaratdı. Xüsusilə qeyd etmək istərdim ki, Naxçıvanın çox gözəl təbiəti, təmiz havası və qonaqpərvər insanları var. Ona görə də bura gələrkən insan özünü vətənindəki kimi hiss edir. Naxçıvan şəhərinin təmizliyi, gözəlliyi isə mənim kimi bura ilk dəfə gələn hər kəsi valeh edir. Etiraf edim ki, muxtar respublikaya gəlməmişdən əvvəl diyarımızın bu qədər ecazkar olacağını təsəvvür belə, etməzdim. Bura gəldim və Şərqin, Asiyanın ən gözəl şəhərlərindən biri ilə tanış oldum. Unikallığı ilə yanaşı, bu şəhərdə həm də yüksək Avropa mədəniyyəti formalaşıb. Daha doğrusu, Şərqin və Qərbin ən üstün dəyərlərini bu şəhərdə görmək olar. Binaların memarlıq quruluşu da diqqətimi cəlb etdi. Şəhərdə qədimliklə müasirlik bir arada yaşadılır. Hiss edirsən ki, Naxçıvanda tarixi keçmişə böyük hörmət göstərilməklə yanaşı, müasirlik də ön planda saxlanılır. Bu isə çox gözəl harmoniya yaradır.

**✍ Nail ƏSGƏROV**
**Tural AĞAYEV**

*Naxçıvan şəhərindəki Şahmat Mərkəzində ümummilli lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr edilmiş “Naxçıvan-2019” Beynəlxalq Şahmat Festivalında ikinci turun oyunları keçirilib.*

# Şahmat festivalında ikinci turun oyunları keçirilib



“A” qrupunda festivalın ən yüksək reytinqli şahmatçısı, belaruslu qrossmeyster Vladislav Kovalyev (2678) bu turda azərbaycanlı beynəlxalq usta Günay Məmmədzadə (2438) ilə üz-üzə gəlib. İlk turdan fərqli olaraq bu dəfə belaruslu şahmatçı azərbaycanlı həmkarı ilə “sülh” bağlayıb. Azərbaycanlı qrossmeyster Nicat Abasov (2633) iranlı zəka sahibi Mehdi Qulami Orimini məğlub edərək ardıcıl ikinci qələbəsini qazanıb. Belaruslu qrossmeyster Aleksey Aleksandrov (2603) isə azərbaycanlı beynəlxalq usta Orxan Abdulovla (2372) xalları yarı bölüb.

İlk turda qələbəni bayram edən azərbaycanlı qrossmeyster Eltac Səfərli (2624) eyni uğuru azərbaycanlı beynəlxalq usta Abdulla Qədimbəylini (2394) də məğlubiyyətə uğratmaqla əldə edib. Aktivlərində bir xal olan özbəkistanlı beynəlxalq usta Ortik Niqmatov (2469) azərbaycanlı beynəlxalq usta Gülnar Məmmədovanı (2349), türkiyəli FİDE ustası Esat Bağlan (2345) yunanıstanlı qrossmeyster Vasilios Kotroniasu (2474), belaruslu qrossmeyster Vadim Malaxatko (2508) isə azərbaycanlı beynəlxalq usta Xanım Balacayevanı (2358) üstələməyi bacarıblar. Turnirdə azərbaycanlı qrossmeyster Türkan Məmmədyarovanın (2256) bu turda da məğlubiyyətlə üzləşməsi gözlənilməz olub. O, azərbaycanlı FİDE ustası Aydın Süleymanlı (2334) ilə görüşdə xalsız qalıb.

Bu qrupda mübarizə aparan 5 zəka sahibimizdən qrossmeyster Urfan Sevdimalıyev (2352) ABŞ-lı qrossmeyster Timur Qarayevlə (2560) qarşılaşıb və ağ-qara taxtanı məğlub tərk edib. Beynəlxalq usta Toğrul Həsənzadə (2323) azərbaycanlı şahmatçı Elmar Atakişiyevlə (2114) xalları yarı bölərək turnirdə ilk xalını qazanıb. Digər beynəlxalq usta Talıb Babayev (2329) isə azərbaycanlı ustalığa namizəd Ayan Allahverdiyevadan (2076) üstün ola bilməyib. FİDE ustalarımızdan Sadiq Məmmədov (2205) azərbaycanlı beynəlxalq usta Məhəmməd Muradlıya (2451), Pərviz Qasımov (2328) isə gürcüstanlı qrossmeyster Tornike Sanikidzeyə (2488) məğlub olub.

İlk turdan sonra 8 şahmatçı maksimum xalla liderdir.

“B” qrupunda isə iki görüşdən sonra 20 zəka sahibinin aktivində iki xal var ki, onların da dördü – Hüseyn Seyid (1533), Sadiq Qarayev (1719), Hətəm Kətanov (1690) və Elmar Süleymanlı (1677) muxtar respublika təmsilçisidir.

Beynəlxalq Şahmat Festivalının “C” qrupunda da liderlər cədvəlində Naxçıvan zəka sahiblərinin adlarına rast gəlmək mümkündür. Belə ki, hazırda 40 şahmatçı maksimum nəticə göstərib. Onların da 22-si naxçıvanlı zəka sahibidir.

**✍ C.MƏMMƏDOV**

# Hüquqi maarifləndirmə günün tələbidir

***Sual:** Hansı hallarda informasiya sorğusunun icrasından imtina edilir?*

**Cavab:** “İnformasiya əldə etmək haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən informasiya sahibi aşağıdakı hallarda sorğunun icrasından imtina edir:

- sorğu əldə edilməsi qanunla məhdudlaşdırılan informasiyaya aid olduqda, yaxud sorğuçunun bu informasiyanı əldə etməyə səlahiyyəti çatmadıqda və ya bu Qanunla tələb edildiyi hallarda, sorğuçu şəxsiyyətini təsdiq edən sənəd təqdim etmədikdə;
- informasiya sahibi sorğulanan informasiyaya malik olmadıqda və yaxud həmin informasiyanın sahibini müəyyənləşdirməkdə çətinlik çəkdikdə;
- sorğuçunun hansı informasiyanı əldə etmək istədiyini aydınlaşdırmaq mümkün olmadıqda.

İnformasiya sorğusunun təmin edilməsindən imtina barədə cavab Azərbaycan Respublikası qanunvericiliyinin müvafiq maddələri də göstərilməklə, aydın və əsaslandırılmış şəkildə tərtib edilməlidir.

***Naxçıvan Muxtar Respublikasının***
***İnsan Hüquqları üzrə Müvəkkilinin***
***(Ombudsmanın) mətbuat xidməti***

### *Bildiriş*

Naxçıvan Dövlət Universiteti 2018-2019-cu tədris ilinin yaz imtahan sessiyası ilə əlaqədar qiyabiçi tələbələrin nəzərinə çatdırır:

1. Universitetin qiyabi şöbəsinin bütün ixtisaslarında (əlavə ali təhsil daxil olmaqla) yaz imtahan sessiyası 3 iyun 2019-cu il tarixdən başlayır və 20 iş günü davam edir.
2. Bütün qiyabiçi tələbələrin sessiyada iştirakı zəruridir.

***Rektorluq***

### *İtmişdir*

Vəliyeva Elmira Asif qızının adına Naxçıvan Müəllimlər İnstitutu tərəfindən verilmiş 050118 nömrəli tələbə bileti itdiyindən etibarsız sayılır.

* * *

Babək rayonu, Zeynəddin kənd sakini Həziyeva Sura Heydərəli qızına məxsus JN-183B inventar nömrəli, 10308038 kodlu “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Güntac Şahməmmədli
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1495. Sifariş № 308